

# ZƏRİFƏ

Amansız ölüm qələm yoldaşımız Zərifəni aramızdan apardı.

Zərifə Qasım qızı Qasımova 1956-cı il fevralın 15-də Qusar rayonunun Sudur kəndində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra Dağıstan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Ailə vəziyyətinə görə 3-cü kursdan təhsilini yarımçıq qoymuşdur. Dörd ildən sonra təhsilini davam etdirib, ali təhsil diplomu almışdır. 1990-cı ildə Qubada müəllim kimi əmək fəaliyyətinə başlamışdır. Uzun illər müəllimlik etmişdir.

Bədii yaradıcılığa erkən başlamışdır. İlk qələm təcrübələri "Qızıl Qusar" qəzetində dərc edilmişdir. Azərbaycan və ləzgi dillərində yazırdı. "Şuşa fəryadları" və "Ülviyyət yuvası" kitablarının müəllifidir. Vətənpərvərlik ruhunda qələmə aldığı şeirləri vaxtaşırı aparıcı mətbuat orqanlarında dərc edilmişdir. Azərbaycan-Dağıstan ədəbi əlaqələrinin genişləndirilməsi sahəsində xidmətləri diqqətəlayiqdir.

İstedadlı şair, təvazökar səmimi insan Zərifə xanımın işıqlı xatirəsi qələm yoldaşlarının qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 10 dekabr.- S. 32.